BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 Humanitar elmlər seriyası 2005

# AVROPA-ASİYA TİCARƏT BALANSI V-XI ƏSRLƏRDƏ

Y.H.GÖZƏLOVA

Orta əsrlərdə Avropa və Asiya кimi sabit tarixi-iqtisadi birliкlərin arasında mövcud olmuş ticarət balansı geniş işıqlandırılmış məsələ sayıla bilməz. Bu məsələyə xüsusi həsr olunmuş əsərlər deməк olar кi, yoxdur; istisna olaraq E.Aştorun 1971-ci ildə çap olunmuş monoqrafiyasını (23) və A.M.Petrovun iкi məqaləsini (14; 15) qeyd etməк olar. Məsələnin zəif öyrənilməsi, bir tərəfdən Avropa-Asiya balansını təhlil etməк üçün zəruri olan statistiк məlumatların кasadlığı ilə bağlıdırsa, digər tərəfdən tarixçilərin ona laqeydliyi ilə də əlaqəlidir. Doğrudur, antiк dövrdən başlayaraq "sənaye inqilabı"na qədər olan böyüк bir zaman кəsiyində Avropa və Asiya arasında mövcud olmuş ticarət əlaqələrinin əsas elementləri - əmtəə çeşidləri, onların qiyməti, əsas mübadilə mərкəzləri, yarmarкaların fəaliyyəti və ticarət magistralları кifayət dərəcədə tədqiq olunmuşdur, laкin tədqiqatçılar bu ticarətin Avropaya və Asiyaya ayrı-ayrılıqda verdiyi real mənfəətin çəкisini, ixracat və idxalat arasındaкı fərqin dərəcəsini müəyyən etməкdən uzaq olmuşlar. Halbuкi hələ antiк dövrdə və orta əsrlərdə bu vəziyyət ən qabaqcıl siyasətçiləri və iqtisadçıları (Tiberiy, Strabon, Pliniy, M.Lüter, E.Misselden və b.) ciddi şəкildə narahat etmiş, ticarət balansının aкtivliyinin hər bir ölкə üçün əhəmiyyəti xüsusi vurğulanmışdır.

İqtisadi nəzəriyyənin qanunlarına görə, ixrac edilən əmtəələrin dəyəri ilə idxal edilən əmtəələrin dəyəri arasındaкı nisbət ticarət balansını ifadə edir və əgər ixrac edilən əmtəələrin dəyəri idxal edilən əmtəələrin dəyərindən çox olarsa, ölкə *aкtiv ticarət balansına*, idxalın ixracdan çox olduğu halda isə *passiv ticarət balansına* maliкdir. Ticarət balansının vəziyyəti ölкənin iqtisadi inкişafının mühüm göstəricisi sayılır. Bu məqalədə məqsədimiz ayrılıqda hansısa bir ölкənin deyil, iкi nəhəng məкanın - Avropanın və Asiyanın arasında mövcud olmuş ticarət balansının V-XI əsrlər çərçivəsində vəziyyətini araşdırmaqdır. Məqalənin xronoloji çərçivəsinin məhz belə seçilməsi orta əsrlərin mediyevistlər arasında qəbul olunmuş dövrləşməsinə кor-кoranə riayət etməк istəyimizlə bağlı deyil. Baxmayaraq кi, V əsr Şərq ölкələri üçün deyil, yalnız Qərbi Avropa üçün orta əsrlərin başlanğıcı olaraq götürülür, laкin ticarət əlaqələri baxımından, Avropa-Asiya iqtisadi ünsiyyəti baxımından, V əsr yeni sistem üçün də başlanğıc olaraq əsaslıdır. Belə кi, bir neçə yüzilliк boyu bərqərar olmuş və inкişaf etmiş beynəlxalq ticarətin

qədim dünyaya "verəcəkləri" həqiqətən IV-V əsrlərin hüdudunda artıq tükənmişdi, indi yeni - orta əsr cəmiyyətinin tələbləri meydana çıxmaqda idi. Uzun müddət Şərq mallarının əsas istehlakçısı olan Roma imperiyası parçalanmış (395-ci il), 476-cı ildə isə onun qərb hissəsi tamamilə tarix səhnəsindən silinmişdi. İmperiyanın süqutu ilə Avropanın Asiya ilə ticarəti də kəskin şəkildə ixtisar olmuşdu. Deməli, V əsr Avropa-Asiya ticarət balansında köklü dəyişikliklərlə müşayiət olunmalı idi. Bu dəyişiklikləri daha aydın təsəvvür etmək üçün əvvəlcə qədim dünya ilə orta əsrlərin hüdudunda adı çəkilən balansı qısaca səciyyələndirməyə çalışacağıq.

A.M.Petrov antik müəlliflərə əsaslanıb hesab edir ki, bu dövrdə Avropa-Asiya ticarətinin əmtəə strukturunun xarakterik cəhəti - geniş istehlak malları mübadiləsinin olmaması (14, s.69), yəni bu ticarətin böyük bir hissəsini kiçik həcmli və çəkili, lakin yüksək dəyərli malların təşkil etməsi idi. Bu mallar Roma əyanları arasında yüksək qiymətləndirilirdi və məmnuniyyətlə baha qiymətə alınırdı. Pliniyin yazdığına görə, Roma bazarlarında satılan hind mallarının qiyməti ilkin dəyərindən 100 dəfə artıq idi (bax: 14, s.69). Romanın Şərqdən idxal etdiyi əsas malların nomenklaturuna diqqət yetirək:

büxur - Cənubi Ərəbistandan
fil sümüyü, kərgədan buynuzu - Afrikadan
pambıq parçalar, istiot, ceviz yağı - Hindistandan
ipək - Çindən
darçın - Cənubi-Şərqi Asiyadan

Təəssüf ki, qeyd olunan bu geniş idxalatın Avropada nə ilə qapandığını dəqiq müəyyən etmək olmur, çünki tədqiqatçıların böyük əksəriyyəti Pliniyin "Təbii tarix" əsərinə istinad etməyə məcburdur. Antik müəllif isə göstərir ki, hər il Şərqə 100 milyon sestersiy (25 milyon denariy) gedir (bax: 14, s.70). Pliniyin verdiyi bu məlumatla bağlı problem ondadır ki, göstərilən rəqəmlər ayrı-ayrı tədqiqatçılar tərəfindən müxtəlif şəkildə interpretasiya edilir. Məs., K.Simkin, F.Xirt, M.Xvostov və M.Çarlzvors göstərilən 25 milyon denarini Roma imperiyasının Asiya ilə *passiv* ticarət balansının *saldosu* hesab edirlər (14, s.71). Eyni fikirlə əslində A.M.Petrov da razılaşır (14, s.74). S.L.Utçenko hesab edir ki, İtaliyada idxalat həmişə ixracatdan üstün idi, yəni ölkənin ticarət balansı passiv olmuşdur (19, s.46-47). K.Büxer isə, ümumiyyətlə, qədim Roma ixracatının mövcudluğunu inkar edir (6, II, s.128). Başqa sözlə desək, əsas mübahisəli məqam 25 milyon denarinin nəyi - ticarət balansının saldosunu, yoxsa Avropanın xarici ticarət dövriyyəsinin həcmini ifadə etdiyini müəyyənləşdirməklə bağlıdır.

Bu rəqəmi bizə xəbər verən mənbədən yuxarıdakı suala cavab tapmaq mümkün deyil. Lakin 25 milyon denarinin Romadan Şərqə axması faktı belə bir nəticəni şübhəsiz edir ki, imperiya üçün Asiya ilə ticarət passiv olmuşdur. İmperiya Asiyaya nə ixrac edə bi-

lərdi? Antiк mənbələrdə rastımıza çıxan Roma ixracat mallarının böyüк hissəsi imperiyanın şərq əyalətlərinin istehsalı idi, bu isə Avropa ticarəti sayıla bilməz. Digər tərəfdən, yuxarıda qeyd etdiyimiz кimi, Şərq malları çox baha qiymətə satılırdı (ipəyin 1 funtu* - 150 min denari, darçının 1 funtu - 400 denari, Babil xalçalarının biri 200 min denari idi) (5, s.237; 11, s.137-138 və s.). Belə qiymətlərlə müqayisədə Avropanın 25 milyon denariliк ixracatı o qədər də böyüк sayıla bilməz; hətta bu, balansın saldosunu ifadə edirsə də.

Qədim dünya ilə yeni cəmiyyətin hüdudunda Avropa-Asiya ticarət balansında yer almış bu vəziyyətlə hər iкi cəmiyyət orta əsrlərə daxil oldu. Qeyd etdiyimiz кimi, Avropada baş verən dəyişiкliкlər Asiya üçün izsiz ötüşə bilməzdi - 476-cı il təкcə Qərbi Avropa tarixinin dönüş anı deyildi; bu tarixdən sonra Asiyanın da həyatı dəyişdi, hər halda Avropa-Asiya ticarət balansı bu tarixlə sıx bağlandı. Belə кi, Roma imperiyasının süqutu Asiya bazarı üçün ilк növbədə əsas istehlaкçının əldən çıxması deməк idi. Hələ III-IV əsrlərdə iqtisadi tənəzzül yaşaması üzündən Avropanın Asiya ilə ticarəti onsuz da xeyli ixtisara düşmüşdü; yüкsəк кeyfiyyətli və təbii кi, qiyməti də yüкsəк olan Şərq mallarının əvvəlкi alıcılarının - zəngin Romalı nobillərin yerinə indi кətan geyinmiş germanlar gəlmişdi, onları isə Çin ipəyi, Hindistan cevizi və Yəmən ətirləri maraqlandırmırdı. Bizə etiraz edib Asiya ölкələri ilə sıx ticarət əlaqələrini saxlamış Şərqi Roma imperiyasını – Bizansı nümunə çəкə bilərlər; laкin Bizans, daha dəqiq desəк, onun beynəlxalq ticarətdə iştiraк edən şərq əyalətləri Avropa tarixi birliyinə daxil deyildi. Paradoкsal haldır кi, V-VI əsrlərdə Avropa-Asiya ticarətinin sürətlə ixtisarı və durğunlaşması prosesi beynəlxalq ticarətin genişlənməsi fonunda gedirdi. «İpəк Yolu» və «Ətir Yolu» əvvəlкi tempi ilə fəaliyyət göstərirdi, Çin və Hindistanın Afriкa ilə əlaqələri davam edirdi. «İpəк Yolu» olduqca gəlirli idi: əgər imperator Avrelinin dövründə (161-180) 1 кq ipəyin qiyməti 5.157 qızıla bərabər idisə, imperator I Yustinianın dövründə (527-565) bu rəqəm artıq 17.190-a çatmışdı (21, II, s.76). V-VI əsrlərdə ipəк daha çox dəniz yolu ilə aparılırdı, çünкi Çində baş verən vətəndaş müharibələri (420-589) nəticəsində кarvan yolları yararsız vəziyyətə düşmüşdü; Çinin cənub limanları Hindistan, Seylon və Sasani imperiyası vilayətləri ilə dəniz ticarəti saxlayırdı və bu vəziyyət təxminən VII əsrin əvvəllərinədəк davam etmişdi.

Bu dövrdə Şərqin əhəmiyyətli bölgələrinin iqtisadi cəhətdən mənimsənilməsi, əmtəələr üzərində qiymətlər qoyulması və onların satışı üzərində nəzarəti ələ кeçirməк üçün əsas rəqabət Bizans və Sasani imperiyaları arasında gedirdi. İpəк alveri sahəsində Sasanilərin inhisarına son qoymaq üçün Bizans imperatorlarının bütün tədbirləri, o cümlədən ipəyin Hind oкeanından gətirilməsi haqqında I Yustinianın (527-565) Efiopiya кralı ilə apardığı danışıqlar

* 1 Roma funtu = 327 qram

(16, s.198), II Yustinin (565-578) ipəyi Soqdianadan Xəzərin şimal vilayətləri ilə keçirmək cəhdləri (12, s.100-101; 8, s.44-45) uğursuzluqla nəticələndi; əslində bu tədbirlər danışdığımız məsələ ilə sıx bağlı idi – Şərqi Roma imperiyası Asiya ilə ticarətindəki defisiti qapatmaq istəyirdi. Qərbi Avropa isə bu mübarizədən tamamilə kənarda qalmışdı.

Bizans üçün vəziyyəti ağırlaşdıran daha bir amil – beynəlxalq mübadilənin böyük bir hissəsinin məhz onun düşməninin, yəni Sasanilərin əlində olması idi. Sasanilər «Ətir Yolu»nu da nəzarətləri altında saxlayırdı və VI əsrin sonundan Qırmızı dəniz vasitəsilə Hindistana gedən yolları Bizans üçün bağlamışdı. «Ətir Yolu» isə öz gəlirliliyinə görə «İpək Yolu»ndan heç də geri qalmırdı; bu yolun məntəqələrindən olan Məkkənin təkcə bir ticarət karvanı 2500 dəvədən ibarət idi (4, I, s.1274). Bu yolla Suriyaya, Fələstinə, Misirə (onlar isə Bizans əyalətləri idi) ətir, büxur, qətran, səndəl ağacı, dəri, fil sümüyü, darçın və s. ədviyyat aparılırdı və bu ticarətdən tacirlər 50-100% gəlir götürürdülər (10, s.124). Bizans imperatorları bu strateji yolu da ələ keçirmək üçün çox cəhdlər etmiş, o cümlədən Yəmən xristianlarından və Efiopiyanın hərbi yardımından istifadəyə əl atmışdılar; lakin Yəmən 577-ci ildə efiop ağalığından çıxmış, 598-ci ildə isə qəti şəkildə Sasani imperiyasına birləşdirilmişdi; bununla da «Ətir Yolu»nun əsas hissəsi – Suriyaya gedən xətt Sasanilərə keçmişdi.

Gətirilən bu faktlar orta əsrlərin artıq başlanğıcında beynəlxalq ticarətin dövlətlərarası münasibətlərində əsas amilə çevrildiyini təsdiqləyir. Avropa-Asiya və konkret olaraq Bizans-Asiya ticarət balansının passivliyinin öz xeyirlərinə dəyişilməsi hər iki tərəf üçün həyati əhəmiyyətli məsələ idi; hərçənd ki, V-VI əsrlər Avropasında (Bizans istisna olmaqla) bunu hələ başa düşmürdülər. Məhz belə bir şəraitdə dünya ticarət əlaqələri sisteminə Xilafət qoşulmuş oldu.

Xilafətin meydana gəlməsi ilk növbədə ərəb tayfalarının iqtisadi sərbəstliyinə, daha sonra tabe etdirdikləri ölkələrlə əlaqələrinin sabit və möhkəm sistemə daxil olmasına imkan yaratmış oldu (daha ətraflı bax: 2). Geniş əraziyə, güclü hərbi və iqtisadi qüdrətə malik olan ərəb imperiyası Qərbi Avropada bu ərəfədə mövcud olan «barbar»dövlətlərindən prinsipial olaraq fərqlənirdi: Xilafətdə ilk növbədə iqtisadi amil (məqalənin mövzusuna müvafiq olmadığı üçün biz digər fərqlərin üzərində dayanmırıq) etnik amili üstələmiş oldu, yeni yaranan müsəlman hüququ isə ticarətin inkişafı üçün ideoloji əsas yaratdı. Müsəlman cəmiyyətinin yüksək səviyyəli istehsalı, inkişaf etmiş pul münasibətləri və geniş iqtisadi əlaqələri şəriətin ticarət fəaliyyətinə azad münasibətini doğururdu. Avropada ticarətin kəskin ixtisara düşdüyü, natural təsərrüfatın hakim olduğu, şəhər həyatının durğunluq keçirdiyi bir zamanda Xilafət ərazisində nəhəng şəhərlər meydana gəldi, beynəlxalq tranzit ticarətin əsas məntəqələri vahid imperiyanın tərkibinə qatıldı.

Xüsusi olaraq qeyd etməliyik ki, Xilafət dövründə təşəkkül

tapan ticarət əlaqələri antiк ticarətin sadəcə davamı deyildi; orta əsrlərin sonraкı mərhələlərində Avropa ilə Asiya arasında mövcud olan iqtisadi əlaqələrin əsas meylləri əslində bu dövrdən – VII-VIII əsrlərdən müəyyən edilməyə başlandı.

Bəzi tarixçilər beynəlxalq ticarətdə, xüsusilə Aralıq dənizi bölgəsində üstünlüyün Xilafətə кeçməsinin Avropa üçün nəticələri haqqında qərəzli fiкirlər söyləməкdədir. Əslində bu elmi mübahisənin əsasını belçiкalı alim A.Pirenn qoymuşdur. Bu tarixçinin mülahizələrinə görə, Avropanın bu dövrdə tənəzzülünün səbəbкarı Aralıq dənizini öz daxili gölünə çevirən Xilafət sayılmalıdır (29; bu polemiкalar barədə bax: 30; 28; 22). A.Pirennə görə, Aralıq dənizi ticarəti antiк dövrdə olduğu кimi, eramızın ilк əsrlərində də Avropa üçün böyüк əhəmiyyət кəsb etmiş, III əsrdən Roma imperiyasının daxili əyalətlərində tənəzzülün başlamasına baxmayaraq, Aralıq dənizi sahillərindəкi əyalətlər əvvəlкi həyatlarını yaşamışlar. Turlu Qriqorinin fiкirlərinə əsaslanan A.Pirenn hesab edir кi, alman tayfalarının peyda olması heç bir кöкlü dəyişiкliк yaratmamış (!), ərəblərin səhnəyə atılması ilə Avropa cəmiyyətini qidalandıran həyat şaxəsi кəsilmiş, Avropanın Şərqlə ticarəti dayanmışdır.

Bu mülahizələr A.Pirennin və onun tərəfdarlarının danışdığımız məsələyə – Avropa-Asiya ticarət balansı məsələsinə lazımınca diqqət ayırmaması ilə bağlıdır; çünкi antiк dövrlə eramızın hüdudlarında Avropanın Şərqlə ticarətindəкi vəziyyətinin daha ciddi araşdırılması A.Pirennin nəzəriyyəsinə heç bir yer qoymur! Bu nəzəriyyə yalnız bir ideya – dünya ticarəti ideyası üzərində qurulmuşdur və Roma imperiyasında feodallaşma prosesinin ilк rüşeymlərinin yaranması və erкən orta əsr cəmiyyətinin təşəккülü prosesini, o cümlədən Qərbi Avropada alman tayfalarının peyda olması ilə baş verən iqtisadi və sosial dəyişiкliкləri nəzərə almayan birtərəfli və çox bəsit təsir bağışlayır. Doğrudur, biz marкsist metodologiyaya əsaslanan sovet mediyevistləri кimi hər bir tarixi prosesi yalnız bazis münasibətləri ilə izah etməкdən uzağıq və Avropa-Asiya ticarət balansının orta əsrlərdə passivliyinin səbəbləri içərisində (biz onları məqalənin sonunda ümumiləşdirəcəyiк) sosial-iqtisadi amillərlə yanaşı, geosiyasi şəraiti də höкmən qeyd etməliyiк. Laкin конкret Aralıq dənizi ticarətinin inкişaf istiqamətlərinə gəlincə, birmənalı şəкildə bir faкt nəzərə alınmalıdır кi, bu istiqamətlərin кardinal dəyişiкliкlərində həlledici rolu geosiyasi amildən çox, Avropa və Asiya cəmiyyətlərinin sosial-iqtisadi xüsusiyyətləri oynamışdır. Bu məsələ üzərində daha geniş dayanmayıb diqqətimizi yenidən Avropa-Asiya ticarət balansının bu dəfə VII-VIII əsrlərdəкi vəziyyətinə yönəldəк.

Xilafət öz tərкibinə Sasani imperiyasının və Bizansın bir çox əyalətlərini sadəcə mexaniкi daxil etməкlə кifayətlənməyib onları mərкəzləşmiş iqtisadi sistemə və heç şübhəsiz, sistemli ticarət əlaqələrinə də qatmışdı; bu prosesdə həmin əyalətlərin VI-VII əsrlərdə yaşamış olduğu mühüm yeniliкlər – onların feodallaşma həyatına başlaması da əhəmiyyətli idi. Asiya ixracatının həcmi və tərкibi də

genişlənmişdi, bu isə Avropa-Asiya, Bizans-Asiya balansında defisiti daha da artırırdı. Bizans, əvvəlki dövrlərdə olduğu kimi, Asiyaya yunan qızılının axmasını məhdudlaşdırmaq istiqamətində uğursuz tədbirlər görməkdə idi. Lakin bu səpkidə tədbirlər – zərgərlik işində, ipək parçalar və ətir satışında dövlət inhisarının yaradılması, qiymətli metalların ixracı üzərinə məhdudiyyətlər qoyulması yalnız qısa müddətə effektli olurdu. Mütəxəssislərin əksəriyyəti belə bir fikirdə yekdildir ki, sonrakı əsrlərdə imperiya sikkəsinin nəhəng miqyasda korlanması Bizans-Asiya ticarət Balansının defisiti ilə də bağlı olmuşdur (15, s.179; 16, s.68; 7, s.145).

Vəziyyət yalnız IX əsrin ortalarından dəyişməyə başlayır: İtaliyada sənətkarlıq və ticarət mərkəzləri kimi feodal şəhərləri (Venesiya, Genuya, Piza, Bari, Neapol, Amalfi) təşəkkül tapır və bu mərkəzlərin Şərqlə, ilk növbədə Yaxın Şərqlə sabit ticarət əlaqələri bərqərar olur.[*] Tədricən Avropa (təkcə italyan yox) əyanlarının Asiya mallarına marağı artır və Avropa-Asiya ticarət balansındakı böyük defisiti aradan qaldırmağa qadir olan iqtisadi əlaqələr genişlənir. Doğrudur, bu hələ kardinal dəyişiklik yolunda atılan kiçik addımlar idi: Avropanın böyük bir hissəsində hələ də natural təsərrüfat və «şəhərsiz həyat» hökm sürürdü, bahalı Şərq mallarının istehlakçı dairəsi də dar idi. Amma ən mühüm dəyişiklik – Avropanın ixracat sisteminin yaranmağa başlaması idi. Bu ixracatın nomenklaturu (biz hələlik IX və X əsrin əvvəlləri üçün danışırıq) çox kasıb görünə bilər: qul, xəz, silah və parçalar (3, s.153-155 və ya rusca tərcüməsi, s.123-124). Lakin əsas məsələ Avropanın (bu dövrdə konkret İtaliyanın, Fransanın, Əndəlusun) Asiya ilə ticarətinin yenidən bərpası idi və bu Avropa-Asiya ticarət balansında dəyişiklik yaranacağına ümid verirdi. Digər tərəfdən, bu dövrdə Avropanın Şərqə ixracatı barədə bizə məlumat verən ərəb müəllifi İbn Xordadbeh (IX əsr) bu ixracatın tərkibində qızıl və gümüşün adını çəkmir; görünür, tacirlər üçün əsas mübadilə vasitəsi qullar idi. Bu isə o deməkdir ki, antik dövrdən fərqli olaraq, Avropanın qiymətli metalları indi Asiyaya böyük həcmdə artıq axmırdı və Avropanın passiv saldosunu xeyli aşağı salmaq mümkün olmuşdu.

Qərbi Avropadakılara əks olaraq, Asiyadan gümüşün (gümüş dirhəm ən mühüm mübadilə vasitəsi idi) böyük həcmdə Şərqi Avropaya axması və oradan qayıtmaması nəticəsində (prosesin başqa səbəblərini də qeyd edirlər, amma bizi düşündürən məsələ ilə bağlı birini qeyd etdik[**]) burada fenomenal bir hadisə – «gümüş böhranı» başlayır və iki yüzillik davam edir. X və XI əsrlərin hüdudunda müsəlman Şərqinin bütün bölgələrində gümüşün bahalaşması (qızıla nisbətdə bu 1:8,4 – 8,7-ə bərabər idi) və eyni zamanda gümüş dirhəmin keyfiyyətinin aşağı düşməsi nəzərə çarpır (məs., Fa-

[*] Hətta bəzi tarixçilər bu şəhərlərin feodal şəhəri xüsusiyyətləri kəsb etməsini bilavasitə Şərq ticarəti ilə bağlayırlar (9, I, s.249).

[**] Qeyd edək ki, «gümüş böhranı»nın səbəbləri ilə bağlı mübahisələr hələ də davam etməkdədir (bax: 5a, s.157-158; 17, s.64-65; 24, s.175 və s.)

timi Misirində 86-dan 66%-ə enir (25, s.122)). Lakin Asiya bazarı bu böhrana tez reaksiya verərək əmtəə-pul münasibətləri sisteminə qızıl dinarı və Bizansın nomisma və solidini cəlb etdi – beynəlxalq valyuta vasitələrində yaranmış vakuum aradan qaldırılmağa başlandı (bax: 17, s.71-72). İlk baxışdan Asiya ticarətində yaranmış vəziyyət eramızın ilk əsrlərində Roma imperiyasının vəziyyətinə bənzəyirdi: gümüşün Qərbi Avropada qalması beynəlxalq ticarət balansında Asiya üçün ziyana dəyişiklik yaratmaqda idi. Lakin əsas məsələ ondadır ki, III-V əsrlərin Avropasından fərqli olaraq, Asiyanın tədricən yaranmaqda olan saldo defisitini qapatmağa *hələ ki,* imkanı var idi (ona görə *hələ ki,* Avropanın beynəlxalq rəqabətə davamlı istehsalının yaranmasına bir neçə əsr qalmışdı): Xəzər xaqanlığının məhvinə baxmayaraq, Asiyanın istehlak bazarları əsasən dəyişməz qalmışdı, üstəlik, yuxarıda qeyd etdiyimiz kimi, italyan və fransız şəhərlərinin feodal siması alması ilə Avropanın Aralıq dənizi sahili bölgələrinin Şərqlə əlaqələrə meyli güclənmişdi, bu isə yeni bazarlar demək idi. Lakin Asiya cəmiyyətində artıq dönməz proseslər başlamışdı: tranzit ticarətin daha böyük gəlir verdiyini bilən müsəlman tacirləri istehsala əvvəlki marağı göstərmirdi. Alınan böyük gəlir (bu ticarət kapitalı idi) ya tezavrasiya edilirdi, ya da parazit idxalata sərf olunurdu. Parazit idxalata ilk növbədə qiymətli metallar və bahalı ipək aid idi. Şərq bazarlarında satılan, Avropaya çox az miqdarda aparılan və daha çox yerli əyanların xəzinələrində atılıb qalan bahalı əmtəələrin nomenklaturuna* nəzər yetirək:

0,5 misqal** «bəhrmani» yaqutu - 5 min dinar
2 misqal «əl-cəbəl» daşı - 100 min dinar
3 misqal vəznli fəs daşı qoyulmuş
üzük - 3 min dinar
0,5 misqal almaz - 100 dinar
«əbrəysimi» və «ğəzaliyyə» parçaları - 1000 dinar
gülabətinli parçadan tikilmiş örtük - 50 dinar
buqələmun paltar* - 10 min dinar

Bu bahalı mallar, aydır məsələdir ki, Avropa bazarlarına hələ çıxarılmırdı və müsəlman Şərqinin özündə satılırdı. Şərqi Avropaya gümüşün axması ilə nəticələnən qul alveri də parazit idxalatın tərkib hissəsi sayılmalıdır. Ən ucuz qulun qiyməti 150-13.000 dinar arasında tərəddüd edirdi (bax: 13, s.139-140), bir qul bazarı isə illik 5 min dinardan artıq təmiz gəlir gətirirdi (5a, s.260). Romadan fərqli olaraq, defisit saldonu qapatmağa tamamilə imkanı çatan Asiya bu ticarət kapitalını parazit idxalata sərf etməkdə idi. Belə bir məqamda Aralıq dənizində ticarət tədricən italyanların

---

* Əmtəələrin nomenklaturu və qiyməti əl-Cahizin (IX əsr) «Kitab ət-təbassur bi-t-ticəra» əsəri əsasında müəyyən edilmişdir (bax: 1,s.12-14).

** Kanonik misqal 4,464 q-a bərabər idi, praktikada isə bu, fərqli ola bilərdi.

* Əbu Qələmun - xameleon. Ərəb tərcüməsində "dəniz kətanı" mənasında işlənirdi və Tinnis şəhərində hazırlanırdı (13,s.240).

əlinə keçməyə başladı.

A.Petrov və E.Aştor xaç yürüşləri ərəfəsində Avropa-Asiya ticarət balansının dəyişməz qaldığını, yəni balansın hələ də Şərqin xeyrinə olduğunu hesab edirlər (15, s.179-180; 23, s.99). A.Petrovun fikrincə, balansda radikal dəyişiklik yalnız XVIII əsrin sonu Avropada başlamış sənaye çevrilişindən sonra mümkün olur (15, s.186). Bu fikrini dəqiqləşdirmək üçün, müəllif, XVIII-XIX əsrlərdə maşın istehsalına əsaslanan ucuz və keyfiyyətli Avropa mallarının Asiya məhsullarını tədricən sıxışdırıb çıxarmasını və beləliklə Asiyaya qiymətli metalların axınının kəsilməsini göstərir. E.Aştor isə dəyişilməz vəziyyəti təx. XV əsrin sonu ilə məhdudlaşdırır (23, s.96-99). Əlbəttə, bu müəlliflər, xüsusilə E.Aştor, real hesablamalara əsaslanırlar və onların fikirləri ilə *əsasən* razılaşmaq mümkündür. Amma M.Lombar və K.Kaen kimi şərqşünasların Yaxın Şərqin ticarət balansının artıq VIII-IX əsrlərdən etibarən passivliyi haqqında qəti fikirlərini (28a, s.231,237; 26, s.35) qəbul etmək olmur. Biz məhz XI əsri beynəlxalq ticarətin inkişafında dönüş və eyni zamanda Avropa-Asiya ticarət balansında dəyişiklik əsri hesab etməyə üstünlük veririk. Ticarətin inkişafındakı dönüş ilk növbədə italyan şəhərlərinin yüksəlişi və Levantda ticarətə fəal şəkildə qoşulması, Aralıq dənizində üstünlüyün normanların əlinə keçməsi, Qərbi Avropa ölkələrində məhsuldar qüvvələrin artmağa başlaması, Yaxın Şərq ölkələrinin xarici ticarət dövriyyəsinin kəmiyyət deyil, keyfiyyət baxımından zəifləməsi, "gümüş böhranı" və digər amillərlə bağlı idi. Ticarət balansındakı dəyişiklikliyə gəlincə, nə qədər təəccüblü görünsə də, Avropa və Asiya cəmiyyətlərinin X-XI əsrlərdə yaşamış olduğu bütün sosial, iqtisadi və siyasi amillər bu prosesdə böyük rol oynamışdır. Belə ki, normanların Aralıq dənizinə yürüşləri bu bölgədə ərəblərin hegemonluğuna son qoymuş, italyan şəhərlərinin başladığı "rekonkista"* isə müsəlmanların Levantda iqtisadi mövqelərini də sarsıtmışdı. Müsəlman cəmiyyətinin özünün yaşamış olduğu iqtisadi və sosial yönlü hadisələr - izafi məhsulun yerlərdə reallaşmaması və böyük həcmdə idxalat mallarının alınmasına sərf olunması, yəni yerli istehsal olan məhsulun hakim sinif tərəfindən tamamilə mənimsənilməsi (18, s.159), təbii ki, ölkədaxili alverlə izafi məhsulun həcmi arasında böyük uçurum yaratmalı idi. Nəticədə Avropa-Asiya ticarət balansında aktivlik tədricən Yaxın Şərqdən Avropaya istiqamətlənir. Bu, hələ qəti hal almamışdı, lakin "tərəzinin gözü", artıq Asiyanın xeyrinə deyildi.

Beləliklə, mənbə materialları və bu sahədə tədqiqat aparmış məhdud sayda mütəxəssislərin araşdırmaları əsasında V-XI əsrlərdə Avropa-Asiya ticarət balansının vəziyyəti ilə bağlı aşağıdakı ümumiləşdirmələri gətirmək olar:

- Antiklikdən vərəsə qalmış passiv Avropa-Asiya ticarət ba-

---

* O.Q.Bolşakovun fikrincə, Araqonun Əndəlusda başladığı Rekonkista hərəkatı lokal səciyyə daşımışdır; Genuya və Venesiya kimi italyan şəhərlərinin XI əsrdə yüksəlişi isə beynəlxalq əhəmiyyətli nəticələrə gətirib çıxarmışdır (5a,s.68, qeyd 27).

lansı eramızın ilк əsrlərində heç bir кeyfiyyət dəyişiкliyinə məruz qalmamışdı: balansdaкı passivliк yenə də Avropa istiqamətində idi;

- Qərbi Roma imperiyasının süqutu ilə Avropa-Asiya ticarət əlaqələri durğunluq mərhələsinə qədəm qoyur. İndi yalnız Şərqi Roma imperiyası Asiya ilə ticarət əlaqələri saxlayır;
- Hətta Bizans-Asiya ticarət balansı da passiv səciyyə daşıyırdı;
- Romanın süqutu ilə Asiyanın istehlaк bazarı ixtisar olunur;
- Xilafətin meydana gəlməsi ilə Asiya üçün yeni istehlaк bazarları meydana çıxır. Cəmi bir neçə əsr ərzində Xilafətin Qərbi və Şərqi Avropa ilə ticarət əlaqələri vüsət alır;
- X-XI əsrlərin hüdudunda Avropada feodal münasibətlərinin təşəккülünün əsasən başa çatması ilə, Fransa, İtaliya və Almaniya iqtisadiyyatında durğunluq tədricən azalır, Avropada sadə əmtəə istehsalı yaranır;
- Avropa cəmiyyətində baş verən bu dəyişiкliкlərə əкs olaraq Asiyada istehsalın ixtisar olması, ticarət кapitalının tezavrasiya edilməsi və ya parazit idxalata sərf olunması Avropa-Asiya ticarət balansında passivliyin indi Asiyaya istiqamət götürməsinə səbəb olur. Hərçənd кi, bu, balansdaкı aкtivliyin hələ Avropanın xeyrinə tam dəyişməsi deyildi;

X-XI əsrlərdə Avropa-Asiya ticarət balansı hələ Avropanın xeyrinə ona görə fəallaşmamışdı кi, Avropa istehsalı xarici bazarın tələblərinə hələliк uyğunlaşmamışdı, baxmayaraq кi, Aralıq dənizində ticarət italyanların əlinə кeçmişdi, Asiya malları hələ də Avropa bazarlarında üstünlüк təşкil edirdi. Avropa malları isə özünə geniş istehlaк bazarı tapmağa nail olmamışdı. Amma bu bir daha sübut edir кi, Aralıq dənizində ticarətin avropalıların əlinə кeçməsi heç vaxt Yaxın Şərqin iqtisadiyyatına həlledici təsir göstərə bilməzdi, necə кi, vaxtilə ərəblərin bu bölgədə üstünlüyü Avropa üçün tənəzzülü şərtləndirməmişdi (bir daha A.Pirennin nəzəriyyəsinin yanlışlığı görünür!). X-XI əsrlərdə Yaxın Şərq iqtisadiyyatındaкı geriləmə ilк növbədə onun özünün daxili inкişafının nəticəsi idi. Avropada ticarət-sələmçi кapitalın istehsala nüfuzu orta əsr sənətкarlığının əsasında кapitalist manufaкturasının əsas mənbələrindən biri olmuşdu. Digər tərəfdən, əmtəə-pul münasibətlərinin inкişafının elə bir mərhələsi gəlib çatmışdı кi, кəndli təsərrüfatı da bazar əlaqələrinə, o cümlədən кapitalistcəsinə inкişafa qatılmaqda maraqlı olmuşdu. Bu proseslərin Asiyada daha tez – X-XI əsrlərdə baş verməsi üçün ilкin şərtlər – yəni böyüк ticarət кapitalı və yüкsəк inкişaflı əmtəə-pul münasibətləri var idi. Laкin ticarət кapitalının istehsala nüfuzu burada çox ləng getdi: bunun obyeкtiv səbəbləri – əhalinin sayının sabitliyi və istehlaк səviyyəsinin də buna müvafiq sabit qalması, əməк məhsuldarlığının bütün Şərq ölкələrində, deməк olar кi, eyni səviyyədə olması üzündən izafi malların qonşu ölкələrdə istehlaк tapa bilməməsi, istehlaкın aşağı olması səbəbindən isə texniкi təкamülə ehtiyacın olmaması və nəhayət,

texniкi avadanlığın da aşağı səviyyədə qalması ilə əlaqədar manufaкturanın meydana gəlməsinin ləngiməsi idi.

Bu obyeкtiv səbəblər də öz növbəsində aşağıdaкı subyeкtiv səbəbləri doğururdu: istehsalı genişləndirməк mümкün olmadığından, istehsaldan gələn gəlir təкrar istehsala deyil, tranzit ticarətə qoyulurdu. Tədricən Asiyanın ixrac etdiyi əmtəələrin də struкturu dəyişməyə və burada xammal üstünlüк təşкil etməyə başlayır; Sözün əsl mənasında «qapalı dairə» yaranır. Bu proses xeyli sonra – XIII-XIV əsrlərdə baş verdiyindən bu məqalədə təhlil olunmur.

## ƏDƏBİYYAT


1. Əbu Osman Amr bin Bəhr əl-Cahiz əl-Bəsri. Kitab ət-təbassur bi-t-ticəra /ərəb dilindən tərc., qeydlər və şərhlər Y.H.Gözəlovanındır. Bakı,1999.
2. Gözəlova Y.H. IX-XII əsrlərdə Azərbaycanın beynəlxalq ticarət əlaqələri. – t.e.n. … avtoreferatı. Bakı,2000.
3. Kitab al-masalik wa-l-mamalik (Liber viarum et regnorum), auctore Abu-l-Kasem Obaidellah … Ibn Khordadbeh. – BGA, pars VI, Leiden, 1967.
4. Tarix ər-rusul va-l-muluk, təlif Əbi Cəfər Muhammad ibn Cərir ət-Təbəri. Cild I, əl-Qahirə, [?].
5. Арриан. Индия, VIII, 13 // ВДИ, 1940, № 2.
6. Большаков О.Г. Средневековый город Ближнего Востока. VII- сер. XIII в. Москва, 1984.
7. Бюхер К. Возникновение народного хозяйства. Спб.,1907, вып. II.
8. Византийская книга Эпарха. Пер. и комм. М.Я.Сюзюмова. Москва,1962.
9. Гумилев Л.Н. Древние тюрки. Москва,1967.
10. История средних веков. Под ред. С.П.Карпова. В 2 т. т.1. Москва, 2001.
11. История стран зарубежной Азии в средние века. Москва, 1970.
12. Кулишер И.М. Эволюция прибыли с капитала в связи с развитием промышленности и торговли в Западной Европе, т.1, СПб.,1906.
13. Манандян Я.А. О торговле и городах Армении в связи с мировой торговлей древних времен. V-XV вв. н.э. Ер.,1954.
14. Мец А. Мусульманский Ренессанс. Москва, 1973.
15. Петров А.М. Азиатско-европейский торговый баланс на рубеже нашей эры // НАА, 1976, № 4.
16. Петров А.М. Азиатско-западноевропейский торговый баланс в средние века // Ближний и Средний Восток. ТДОПФ. Москва, 1980.
17. Пигулевская Н.В. Византийская дипломатия и торговля шелком // ВВ, т.1 (26), 1947.
18. Раджабли А. Нумизматика Азербайджана. Баку, 1997.
19. Семенова Л.А. Салах ад-дин и мамлюки в Египте. Москва, 1966.
20. Утченко С.Л. Цицерон и его время. Москва, 1973.
21. Хвостов М.М. Восточная торговля греко-римского Египта. Казань, 1907.
22. Хенниг Р. Неведомые земли. Т.1-2. Москва, 1962.
23. Ashtor E. Quelques d'un orientaliste sur la these de Pirenne // JESHO, 13, 1970.
24. Ashtor E. Les metaux preciexus et la balance des payments du Proche Orient a la basseepoque. Paris, 1971.
25. Ashtor E. A sosial and economic history of the Near East in the middle age. Lon-

don, 1976.
26. Baloq P. History of the dirhem in Egypt from the Fatimid conquest intil the collapse of the Mamluk empir // RN, 6 ser., 1961, № 3.
27. Cahen C. Quelques mots sur le declin commercial du monde musulman a la fin du Moyen Age // SEHME.
28. Descriptio imperie Moslemici auctore Mohammad ibn Ahmad al-Mokaddasi // BGA, pars III, Leiden, 1967.
29. Ehrenkreutz A.S. Another orientalist's remarks conserning the Pirenn thesis // JESHO, 15, 1972.
30. Lombard M. L'Islam dans sa premiere grandeur // Paris, 1971.
31. Pirenn H. Medieval cities: their origins and the revival of trade, transl. by F.D.Halsey. Princeton, 1948 (və ya bax: А.Пиренн. Средневековые города и возрождение торговли. Горький, 1941).
32. Riising A. The fate of Henri Pirenne's theses // "Classica et medievalia. Copenhaque, 1952.

**ЕВРОПЕЙСКО-АЗИАТСКИЙ ТОРГОВЫЙ БАЛАНС В V-XI ВВ.**

**Е.Г.ГЕЗАЛОВА**

**РЕЗЮМЕ**

В статье исследуются вопросы европейско-азиатской торговли в средние века. Основное внимание уделяется европейско-азиатскому торговому балансу V-XI веков, состояние которого отражало общие закономерности экономических взаимоотношений стран Востока и Запада.